**UOT: 791.43.**

**Şəlalə Bədəlova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: shallbadalova@gmail.com**

## JANR SƏRHƏDLƏRİNİN GENİŞLƏNMƏSİ: ART-HORROR

**Xülasə**: Noel Kerrollun horror janrındakı müasir müzakirələrə təsirini qiymətləndirmək vacibdir. Onun art-horror və hisslər sahəsində işi müasir horror janrının tədqiqi üçün əsas yaratmışdır. Məqalədə dəyişən və inkişaf edən kino məkanında art-horror nəzəriyyəsinin yeri, onun yaranma prosesi, Noel Kerrolun bu sahədə fikirləri araşdırılmışdır. Art-horrorun ötürdüyü emosiyanın, qorxu və ikrah hissinin müasir horror filmlərdə təzahürü dəyişkənliyi və personajların rolu haqqında təhlillər aparılmışdır.

**Açar sözlər**: janr, qorxu, art-horror, empatiya, Drakula, qatil, nəzəriyyə.

Kinonun yarandığı vaxtdan bu günə kimi horror janrı durmadan dəyişən, inkişaf edən, yeni tendensiyalar gətirən bir janra çevrilmişdir. Horror janrı uzun müddətdir populyar, lakin haqqında tənqidi fikirlərin çoxluq təşkil etdiyi janr olsa belə, böyük auditoriyaya çatmağa qadirdir.

Horror janrlı filmlərin əsasında ölüm, dəhşət və bunlardan alınan həzz, ikrah və qorxu hissi anlayışları durur. Kinonun bu anlayışları bizə sənət olaraq estetikləşdirilmiş şəkildə çatdırması nəticəsində biz onu izləyə, hətta horror janrlı bir filmi sənət əsəri olaraq qəbul edə bilirik. Bir növ, tamaşaçı bu estetikliyə minnətdar olaraq ondan həzz ala bilir. Həzz almanın başında hər zaman filmdən tamaşaçıya ötürülən emosiyalar durur. Tamaşaçı horror janrı deyiləndə artıq bu filmdə onu nə gözlədiyini bilir.

“Biz qorxular yaradan bir dövrdə yaşayırıq. Bunlar müharibələr, münaqişələr, sosial problemlər, planetin gələcək vəziyyəti ilə bağlı təbii və qaçınılmaz qorxulardır. Daxilimizdə və xaricdə ifadə edə bilməyəcəyimiz, bilinməyənin qorxusu var. Biz onları keçmişimizdə, bu günümüzdə və ehtimal olunan gələcəyimizdə görə bilərik. Biz onları öz dünyamızda və başqa aləmlərdə təsəvvür edə bilərik” (1; s. 59).

Covanni Skognamillonun (eng. Giovanni Scognamillo) dediyi kimi, qorxu

yaradan bu çağda bu fenomeni nəql etməklə, vizuallaşdırmaqla, rəngləməklə və qeyd etməklə ondan istifadə edə və yeni məhsullar yarada bilərik. Başqa sözlə, biz qorxunu bizə fayda verəcək qədər məhsuldar edə bilərik (1; s. 120). Deməli, qorxu insanı istehsala aparmaqla yanaşı, həm də insanların öz fiziki, əqli, sosial vəziyyətini, rolunu və yerini qorumağa, onu tarazlıq və nizam-intizamda saxlamağa, harmoniyanı təmin etməyə kömək edir. Bu, təkcə faydalı hiss deyil, təmkinli olduqda bir fenomenə çevrilə bilən hissdir. Ona görə də onu ifadə edəndə, müəyyən edəndə və ya izah edərkən hər iki tərəfdən nəzərə almaq lazımdır. Kinoda horror janrında çəkilərək istehsal olunan filmlər məhz buna nümunədir.

Horror janrında olan filmləri təhlil edərkən qarşıya qoyulan suallar bunlardır: niyə qorxuruq? Bütün bu işgəncə səhnələri haradan gəlir və tamaşaçı niyə dəhşət səhnələrinə bu qədər dərindən reaksiya verir? Bütün bu sadaladığımız hisslərin əsasında tamaşaçıda qorxu hissi, buna baxmayaraq, qorxudan alınan həzz paradoksu durur. Necə olur ki, tamaşaçı realda qəbul etməyəcəyi hadisələri filmdə izləyir və bundan həzz alır? Buna verə biləcəyimiz ən mümkün cavablardan biri budur: Tamaşaçı hər hansı bir horror janrında filmlərə baxdığı zaman öz qorxularını həmin səhnələri izlədiyi zamanı ortaya çıxara bilir. Bu, bir növ, basdırılmış duyğunun oyadılmasıdır. Çünki məcburi basdırılan hər bir duyğu müəyyən bir məqamda üzə çıxarılmağa məhkumdur. Lakin hər bir tamaşaçı bütün horror filmlərdə bunu hiss edə bilməz. Tamaşaçının təhtəlşüurundakı qorxularla horror filmində göstərilən hər bir predmet arasında əlaqə mövcuddur.

Kino inkişaf etdikcə onun sənət olaraq inkişafına səbəb olan filmlər sənət filmləri adlanırsa, eyni zamanda horror filmləri art-horror adlandırıldı. Art-horror ifadəsi Noel Kerrollun (eng. Noël Carroll) "The philosophy of horror" adlı kitabından tanışdır. Art-horrorun başlıca üstünlüyü onun tamaşaçıda yaratdığı emosiyadır və bu komponentlər daxildir: qeyri-adi məxluqlar, duyğular və izahat (2; s. 40). Yəni niyə belə qeyri-adi varlıqlarla qarşılaşanda müəyyən emosiyalar keçiririk.

Art-horrorun ən böyük uğuru onun digər filmlərdə görülməyən qeyri-adi personajlara yer verməsidir. Tamaşaçıya bəllidir ki, onu horror janrında filmdə nə gözləyir. Çünki bu janrda baxdığı digər filmlərə əsaslanaraq öz düşüncəsinə əmindir. Tamaşaçını filmə baxması üçün onu təhrik edəcək yeni bir vizual forma lazımdır. Bu isə horrorun əvəzolunmazı olan dəhşətli varlıqlardır. Noel Kerroll (eng. Noël Carroll) art-horrorun ötürdüyü hissləri Drakula ilə izah edir.

"Əgər mən horrora baxıramsa və müəyyən psixi hallar baş verirsə (qışqırmaq, titrəmə və s) buna səbəb məsələn dəhşətli varlıqlardan hesab olunan Drakulanın a) təsəvürümdə mümkün ola biləcək yəni real varlıq olaraq canlanması; b) Drakulanın bədii əsərdə təsvir olunan şəkildə fiziki (bəlkə də mənəvi və sosial) təhdid xüsusiyyətinə malik olduğunu və c) Drakulanın murdar olma xüsusiyyətinə malik olması burada qazanılan bütün bu fikirlərin fonunda Drakula kimi varlıqlara toxunmamaq istəyi ilə müşayiət olunur" (3; s. 27).

Qiymətləndirici kateqoriya xüsusi obyektləri seçir və ya fokuslanır. Emosiya bu cür obyektlərə yönəlir; art-horror Drakula, Volfmen və cənab Hayd kimi xüsusi personajlara yönəldilmişdir. Burada, Drakula haqqında düşüncə, yəni Drakula, bu və ya digər ölçülərdə təhlükəli və ikrah hissi oyadan varlıqdır. O, mövcud ola bilər və bu dəhşətli şeyləri edə bilər. Bu konsepsiya haqqında qənaətə gəlmək olar ki, verilən kitab, film və ya şəkil Drakula haqqında əyləndirməyə, Drakulanın var ola biləcəyi haqqında düşünməyə dəvət edir. Drakula konsepsiyasının bu cür təsvirlərindən biz Drakulanı qorxulu və natəmiz bir personaj kimi tanıyırıq və bu art-horror emosiyasına səbəb olur.

"Art-horrorla bağlı mövqeyim tələb edir ki, emosiya müasir elm tərəfindən qəbul edilməyən canlılar kimi başa düşülən qeyri-adi məxluqlar (eng. Monsters) üzərində cəmlənsin. Ancaq bu, bəzilərini nəzəriyyənin çox dar olduğunu söyləməyə vadar edə bilər. "Orca" və "Çənələr" ("Jaws") kimi filmlər, Gaston Lerunun "Operadakı ruh" ("The Phantom of the Opera") və Con Farrisin "Alaqaranlıq" ("Nightfall") kimi romanları art-horror nümunələri deyilmi? Bəs həmin əsərlərdə bu varlıqlar varmı? Köpək balıqları, balinalar "Çənələr" filmlərində mövcuddur və adı çəkilən romanlardakı psixi qüsurlular olsalar belə, müasir elm tərəfindən asanlıqla qəbul edilən insanlardır. İki ruhi vəziyyəti fərqləndirən sevgi və qorxu iki fərqli inancdır. Sevilən insanın varlığı zamanı filmdə biz düşünürük "O, çox cəlbedicidir" və s. Əksinə, emosional vəziyyətdə qorxudan belə fikirlər yoxdur. Tamaşaçıda yalnız "canavardır, bir növ, hədələyici və natəmizdir" düşüncəsi formalaşır. "Serbiyalı filmi" ("A serbian film", 2010) nəzərdən keçirən zaman görə bilərik ki, bu film son illərin ən gərgin, tamaşaçını narahat edən filmdir. Filmdə kifayət qədər narahatedici səhnələr mövcuddur (cinsi əlaqə zamanı başın kəsilməsi). Filmdə təsvir olunan personajlar fövqəltəbii deyil, lakin film horror olaraq geniş şəkildə qəbul olunur. Bu film Noel Kerrollun (eng. Noël Carroll) nəzəriyyəsinə əksdir. Lakin onun horror olmadığını demək düzgün deyil.

Aydındır ki, əgər biz horrorun kino, romanlar, rəsmlər və ya digər təsviri sənətlərə xas olmayan bir janr olduğunu iddia etmək istəyiriksə, biz yalnız qorxu və ikrah hissi yaratmaq üçün nəzərdə tutulmuş qeyri-adi məxluqların təsvirlərinə diqqət yetirə bilmərik. Bu o demək deyil ki, nəzəriyyənin maraqlı tərəfi yoxdur. Xüsusən də, art-horrorun alt qrupuna aid olan filmlərin maraqlı xüsusiyyətlərə malik olduğu görünür. Əslində, Kerrollun tərifi qorxu filmlərinin alt janrının tərifi üçün əsas götürülə bilər. Ridli Skottun "Yadplanetli" ("Alien"; 1979), Devid Kronenbergin "Milçək" ("The Fly"; 1986) və Con Karpenterin "Şey" ("The Thing" ;1982) filmləri art-horror filmlərinə nümunədir. Tamaşaçının bir varlıq ilə empatiya qurması, bir növ, identifikasiyası horror filmində çox mürəkkəb prosesdir. Lakin horror filmlərində personajın dəyişməsilə, xüsusilə insan qatil obrazının yaradılması zamanı bu məsələ daha çox nəzərə çarpır.

1960-cı illərdən sonra çəkilən horror filmlərində digər insanlardan qorxma, seriyalı qatil obrazı daha geniş yayılmışdır (4; s.13). Eynilə, bir qorxu filmində baş qəhrəman qatil tərəfindən küncə sıxışdırıldığında, biz onun qatil haqqında emosional qiymətləndirməsini paylaşa bilirik. Lakin bu, bütövlükdə situasiyaya yönəldilmiş müxtəlif hisslər toplusuna gətirib çıxarır ki, bu hisslər xarakterə inandırıcı şəkildə aid edilənlərdən tamamilə fərqlidir: horrora qarşı art-horror, eqoist narahatlığa qarşı empatik narahatlıq, şübhə və ya birgə diqqət. Baş qəhrəman çarəsiz ov olarsa, qatildən qaçmalıdır. Baş qəhrəman hücuma məruz qaldıqda, biz nəinki dəhşətə gəlirik, həm də belə bir insanın – qəhrəmanın – eybəcər və hədələyici bir varlığın pəncəsində olmasından narahat oluruq. Ümumiyyətlə, bizim hisslərimiz qəhrəmanın acınacaqlı vəziyyətindən narahat olduğumuz daha geniş situasiyaya daha əhatəli cavab verən tərkib hisslərdir.

Dövr keçdikcə janrların sərhədləri genişlənir və bir filmdə bir neçə janr qarışığına rast gəlinir. Belə olduğu halda tamaşaçıya ötürülən emosiyada dəyişkənliyin olması qaçınılmaz haldır. Noel Kerrollun (eng. Noël Carroll) nəzəriyyəsinə görə, art-horrorun verdiyi hisslərdə qorxu və ikrah hissi üstün olmalıdır.

Art-horror ilə emosiyaların bağlılığında duran tamaşaçıya verilən qorxu və personajdan ikrah hissi doğurması horror janrı inkişaf etdikcə müəyyən dəyişimlərə məruz qalmışdır. "Yalnız aşiqlər sağ qalır" filmi horror janrında olan baş obrazların vampir olduğu romantik mövzulu filmdir. Film tək horror janrında olmasa belə bura aid edilir. Art-horror hesab edilən filmdə günümüzə qədər gördüyümüz vampirlərlə bağlı filmlərdən tamamilə fərqli yanaşma verilmişdir.

Tamaşaçı filmi izləyərkən müəyyən məqamda qorxu hissi keçirə bilər. Lakin art-horror nəzəriyyəsində verilən vampirə qarşı qorxu və ikrah hissi bu filmin təhlili zamanı götürülə bilməz. Bunun səbəbi isə nəzəriyyədə janr sərhədinin toxunulmaz olaraq götürülməsi və filmdə bu sərhədlərin genişlənməsidir. Hororun və qatil obrazın sadəcə qorxu və ikrah hissi oyatması və ya bundan alınan həzz belə onun müəyyən çərçivədə art-horror olaraq göstərilməsi, günümüzdəki bəzi horror filmlərin təhlili zamanı müəyyən sərhədlənmələrə gətirib çıxarır. Məsələn, "Qatil maşın" ("Chiristine"; 1983) filmində qatil obraz olaraq avtomobildir. Kerrollun nəzəriyyəsində qeyd etdiyi kimi, həmin avtomobil öz-özlüyündə varlıqdır. Lakin var olan qatildir və tamaşaçıda qorxu hissi yaratsa belə ikrah hissini oyatmır.

Bütün bu araşdırmalardan aydındır ki, art-horror N.Kerrollun art-horror nəzəriyyəsi haqqında effektiv fikirlərə malik olsa da, müasir horror filmlərində bu yanaşmanın hər iksinin (qorxu və ikrah) üst-üstə düşməsi yuxarıda qeyd edilən nümunələrdən göründüyü kimi, hər zaman gözlənilən deyil. Lakin bu nəzəriyyənin yanaşması nəticəsində art-horror filmlərinin təhlili qaçınılmazdır.

**Ədəbiyyat siyahısı:**

1.Giovanni Scognamillo Korkunun sanatlari 1996.
2.Andrea Sauchelli, Horror and mood.
3.Carroll, Noël, The philosphy of horror 1990.
4.Wells, Paul, The horror genre: From beelzebub to blair witch 2000.

**Шалала Бадалова**

## РАСШИРЕНИЕ ГРАНИЦ ЖАНРА: АРТ-ХОРРОР

**Резюме:** Важно оценить влияние Ноэля Кэрролла на современные дискуссии в жанре ужасов. Его работы в области арт-хоррора и эмоций заложили основу для изучения современного жанра ужасов. В статье проанализированы вариативность страха и отвращения эмоций, передаваемых арт-хоррором в современных фильмах ужасов, и роли персонажей.

**Ключевые слова**: жанр, страх, арт-хоррор, эмпатия, Дракула, убийца, теория.

**Shalala Badalova**

**EXPANSION OF GENRE BOUNDARIES: ART-HORROR**

**Summary**: It is important to assess the impact of Noël Carroll on modern discussions in the horror genre. His work in the field of art-horror and emotion has laid the foundation for the study of the modern horror genre. An analysis was made of the variability of the fear and disgust of the emotion conveyed by art-horror in modern horror films and the role of the characters.

**Key words**: genre, fear, art-horror, empathy, Dracula, murderer, theory.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 13. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**professor Əli Əmirli**